**Əlavə.**

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin**
**“13” mart 2023-cü il tarixli**
**№ 3-29-59/3-2-123F/2023 №-li əmri ilə təsdiq edilmişdir.**

**“Dəyərlərimizi qoruyaq!” layihəsinin icrası ilə bağlı**
**Tədbirlər Planı**

| № | Fəaliyyətin adı | Görüləcək işlər | İcraçılar | İştirakçılar | İcra vaxtı |
|---|---|---|---|---|---|
| 1. | “Heydər Əliyev İli”nə həsr olunmuş “Dəyərlərimizi qoruyaq!” adlı tədbirlərin təşkili | 1.1.“Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz”, “Milli-mənəvi dəyərlər və müasirlik” mövzusunda şagird təqdimatları, müəllim məqalələrinin hazırlanması, “Kiçik Akademiyalar”da konfransların keçirilməsi, məktəblilərin tarixçilərlə görüşlərinin təşkili. | Məktəbdənkənar fəaliyyətlərin təşkili və Ümumi təhsilin təşkili sektorları, ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi, “Kiçik Akademiya” üzvləri | 2023-cü il ərzində |
| 2. | Novruz bayramına həsr olunmuş “Dəyərlərimizi qoruyaq!” adlı tədbirlərin keçirilməsi | 2.1.“Dəyərlərimizi qoruyaq!” adlı ədəbi-bədii kompozisiyalar, “Açıq dərs”lər, sinif təşkilat saatları, “Dəyirmi masa” və diskussiyaların keçirilməsi;<br>2.2. İntellektual müsabiqə, yarış və sosial aksiyaların təşkili;<br>2.3. Məktəblilərin əl işlərindən ibarət sərgilərin təşkili;<br>2.4.Novruz bayramının tarixi, adət-ənənələri haqqında mühazirələrin keçirilməsi;<br>2.5.Xalqımızın adət-ənənələrinin, Novruz adətlərinin yer aldığı kinofilmlərin nümayişinin təşkili;<br>2.6. Mənəvi dəyərlərimizi əks etdirən guşə və divar qəzetlərinin hazırlanması. | Məktəbdənkənar fəaliyyətlərin təşkili və Ümumi təhsilin təşkili sektorları, ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | Fevral-mart 2023-cü il |
| 3. | “Qardaşlaşmış məktəblər” təşəbbüsünə və “OCEP” layihəsinə qoşulmuş ümumi təhsil müəssisələri , eləcə də UNESCO Assosiativ Məktəblər Şəbəkəsinə (ASPnet) üzv olan məktəblərdə | 3.1.Xarici ölkələrin məktəbləri ilə əməkdaşlıq quran ümumi təhsil məktəbləri tərəfindən həmin ölkələrin və ölkəmizin mədəniyyəti, adət-ənənələri, milli-mənəvi dəyərlərinin əks olunduğu tədbirlərin təşkili;<br>3.2.Novruz bayramının keçirildiyi digər ölkələrin adət-ənənələri, o sıradan Novruz adətləri barədə məktəblilərin məlumatlandırılması. | Məktəbdənkənar fəaliyyətlərin təşkili sektoru, Milli Olimpiya Komitəsi, ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | 2023-cü il ərzində |

| | | | | | |
|---|---|---|---|---|---|
| | “Dəyərlərimizi qoruyaq!” adlı tədbirlərin təşkili | | | | |
| 4. | Məktəb kitabxanalarında “Dəyərlərimiz bədii ədəbiyyatda” adlı tədbirlərin təşkili | 4.1.Məktəb kitabxanalarında xalqımızın adət-ənənələrinin əks olunduğu kitab və bədii məqalələrdən ibarət guşələrin hazırlanması və şagirdlərin guşələrlə tanış edilməsi;<br>4.2. Məktəblilərin ədəbiyyatşünaslarla görüşlərinin təşkili. | Ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin şagirdləri, məktəb kitabxanaçıları, Azərbaycan dili və ədəbiyyat, tarix fənn müəllimləri | 2023-cü il ərzində |
| 5. | Mənəvi dəyərlərimizin əks olunduğu bədii nümunələr (əsərlər) əsasında tamaşaların hazırlanması | 5.1.Aktyorluq bacarığı və səhnə mədəniyyətinə malik istedadlı şagirdlərin iştirakı ilə tamaşaların hazırlanması və nümayişi. | Ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | 2023-cü il ərzində |
| 6. | “Mətbəx mədəniyyətimiz” adlı kulinariya və “Milli musiqimiz xalqımızın milli dəyəridir” adlı milli musiqi günlərinin təşkili | 6.1.Kulinariya və milli musiqi günlərində şagirdlərə milli mətbəximiz və milli musiqimiz barədə məlumat verilməsi;<br>6.2.Peşə təmayüllü siniflərdə şagirdlər tərəfindən əl işlərinin hazırlanması. | Ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərində peşə təmayüllü siniflərin müəllim və şagirdləri | 2023-cü il ərzində |
| 7. | Qədim tarixə malik milli idman növləri, milli xalq oyunları barədə maarifləndirmə tədbirləri, eləcə də müxtəlif idman növləri üzrə yarış və turnirlərin keçirilməsi | 7.1. Ölkəmizdə idmanın tarixi, qədim tarixə malik milli idman növləri barədə şagirdlərin məlumatlandırılması;<br>7.2. Məktəblilər arasında idman yarışları və turnirlərinin təşkili. | Məktəbdənkənar fəaliyyətlərin təşkili sektoru, Bakı şəhəri üzrə Rayon Gənclər və İdman İdarələri, ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin şagird kollektivi və fiziki-tərbiyə fənn müəllimləri | 2023-cü il ərzində |
| 8. | Tarix və mədəniyyət abidələrimiz barədə maarifləndirmə tədbirlərin təşkili | 8.1.Tarix və mədəniyyət abidələrimizin tanıdılması istiqamətində şagirdlər arasında məlumatlandırma işinin aparılması. | Ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | 2023-cü il ərzində |

| | | | | | |
|---|---|---|---|---|---|
| 9. | “Dəyərlərimizi qoruyaq!” adlı şagird və müəllim layihələrinin hazırlanması | 9.1. Ümumi təhsil məktəblərində interaktiv və əsaslandırılmış tədrisə yönəlmiş layihə əsaslı öyrənmənin əsasında mövzu ətrafında layihələrin hazırlanması, layihələrin həyata keçirilməsinə dəstək göstərilməsi;<br>9.2. Müəllimlər və şagirdlər tərəfindən sosial videoçarxların hazırlanması. | Məktəbdənkənar fəaliyyətlərin təşkili sektoru, ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | 2023-cü il ərzində |
| 10. | “Dəyərlərimizi qoruyaq!” adlı festivalın keçirilməsi | 10.1. Şagird və müəllimlərin iştirakı ilə məktəbdaxili festivalın və sərginin təşkili;<br>10.2.Festivalda ümumi təhsil müəssisəsinin layihə çərçivəsində həyata keçirdiyi fəaliyyətlərin nümayiş etdirilməsi. | Ümumi təhsil məktəbləri | Ümumi təhsil məktəblərinin müəllim və şagird kollektivi | Noyabr-dekabr 2023-cü il |